Tarix və onun problemləri, №3 2009

**HABİL MƏMMƏDOV**
*Tarix elmləri namizədi,dosent Bakı Slavyan Universiteti*

# AZƏRBAYCAN – ŞƏRQİ AVROPA: MƏDƏNİYYƏT, ELM VƏ TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞI ŞƏRTLƏNDİRƏN AMİLLƏR

«Mədəni əlaqələr» anlayışı çox çalarlı və çox mənalıdır. Bu anlayışın məhz beynəlxalq konteksdə öyrənilməsi məsələnin ümumbəşəri səciyyə kəsb etdiyini sübut edir. İctimai – sosial və mədəni hadisə olan «beynəlxalq mədəni əlaqələr» cəmiyyətin mühüm, aparıcı fəaliyyət institutlarından birini təşkil edir. Cəmiyyətdə bu fəaliyyət institutunun düzgün təşkili tərəqqi ilə müşahidə olunan prosesdir. «Beynəlxalq mədəni əlaqələr»in elmi cəhətdən hərtərəfli öyrənilməsi, bu sahədə ən zəruri nəzəri biliklərin, informasiya, praktik vərdiş və bacarıqların mənimsənilməsinə xüsusilə böyük ehtiyac vardır[1,s.6 -7].

Ta qədimdən dünya xalqları bir-biri ilə milli-mədəni dəyərlərini qarşılıqlı mübadilə etmişlər. Bu gün Azərbaycan dünyanın 160-dan çox ölkəsi ilə mədəni əlaqə saxlayır. Bu əlaqələr xalqların bir-birinə yaxınlaşmasına, onlar arasında inam və etimadm möhkəmlənməsinə kömək edir. Bu mənada müstəqil Azərbaycan Respublikasının Şərqi Avropa ölkələri ilə mədəni əlaqələri mədəniyyətlərin zənginləşdirilməsi işinə xidmət edir. Mədəniyyətlərarası dialoq fərdlər, qruplar, müxtəlif təşkilatlar və ölkələr arasında bütün səviyyələrdə müvəffəqiyyətli əməkdaşlıq üçün vacib şərtdir.

Azərbaycan və Şərqi Avropa xalqları mədəniyyətlərinin qarşılıqlı mübadiləsi milli maraqlara cavab verərək onların sülh, əmin-amanlıq, tərəqqi və demokratiya naminə daha da yaxınlaşmasına təminat verir, əlaqələrini möhkəmləndirir.

Bunlar Azərbaycanın Şərqi Avropa ölkələri ilə də mədəni əlaqələrini şərtləndirən mühüm amillərdən biridir.

Şərqi Avropa ölkələri ilə mədəniyyət sahəsində əməkdaşlıq müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin prioritet istiqamətini və beynəlxalq mədəni əlaqələrinin mühüm tərkib hissəsini təşkil edir. Sosializm sisteminin və SSRİ-nin süqutundan sonra Şərqi Avropa kimi tanınan ərazi Ukrayna, Belorus, Moldova, Baltikyanı ölkələr və Rusiyanın Avropa hissəsinin hesabına genişləndi.

SSRİ-nin süqutu ilə postsovet məkanından ayrılan həmin Şərqi Avropa dövlətləri və Azərbaycan təxminən iki əsrə yaxın əvvəlcə Rusiya imperiyasının, sonra isə Sovet ittifaqının tərkibində vahid siyasi-iqtisadi-ideoloji sistemdə olmuşlar. Vahid imperiya daxilində onları birləşdirən coğrafi-siyasi, ticarət-iqtisadi və tarixən mövcud olmuş mədəni əlaqələr daha zəngin, daha dərin məzmunlu mədəni təmasın yaranması və inkişafı üçün xüsusi rola malik olmuşdur. Başqa sözlə, onları tarixən birləşdirən geosiyasi, iqtisadi, ideoloji, mədəni, elmi-texniki, humanitar əlaqələr indi müstəqil dövlətlər kimi ikitərəfli münasibətlərini, mədəni əməkdaşlığını şərtləndirən amil oldu. Postsovet məkanında vahid siyasi və iqtisadi birliyin çökməsi, yeni müstəqil dövlətlər arasında ənənəvi siyasi, iqtisadi və mədəni əlaqələrin yeni müstəvidə bərpa olunmasını və inkişaf etdirilməsini bir zərurətə çevirdi. Mədəni əlaqələr qarşılıqlı iqtisadi münasibətlərdən ayrılmazdır. Təsərrüfat əlaqələrini bərpa etmək, enerji təhlükəsizliyinə nail olmaq və karbohidrogen ehtiyatları ilə iqtisadiyyatını təmin etmək istəyi dövlətlərarası mədəni əməkdaşlığa birbaşa təsir göstərmişdir. Mədəni əlaqələrin inkişafı isə öz növbəsində iqtisadi münasibətlər sahəsində qarşılıqlı əməkdaşlığa təkan vermişdir. Əvvəllər bir ölkədə yaşamış, indi isə ayrı-ayrı dövlətlərin vətəndaşları olan və diasporanı təmsil edən azərbay-

canlılar, ruslar, ukraynalılar, moldovanlar, beloruslar, litvalılar, estonlar, latviyalılar və başqa millətlərin nümayəndələri mədəni əlaqələrin və inteqrasiya proseslərinin genişlənməsinə müsbət təsir göstərmişlər.

Azərbaycanın Ukrayna, Moldova, Belorusiya və Baltikyanı respublikalar ilə beynəlxalq münasibətləri, mədəni əlaqələri müstəqilliyə nail olduqdan sonrakı bütün illər ərzində intensiv qarşılıqlı faydalı olaraq, təhlükəsizlik, enerji, geosiyasi və mədəni-humanitar layihələr çərçivəsində mütəmadi olaraq inkişaf etmişdir.

Müstəqillik əldə etdikdən sonra yalnız Azərbaycan-Rusiya münasibətlərinin təzadlı, mürəkkəb ziddiyyətli və çətinliklərlə dolu inkişaf yolu diqqəti cəlb edir. 2001-ci il yanvarın 9-10-u tarixində Rusiya Federasiyasının prezidenti V.Putinin Azərbaycan Respublikasına rəsmi səfəri Azərbaycan-Rusiya münasibətlərinin inkişafında yeni mərhələnin başlanğıcını qoydu. İmzalanan Bakı bəyannaməsi iki ölkə arasında strateji tərəfdaşlığın əsasını qoyan 3 iyul 1997-ci il tarixli Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqaviləyə əsaslanaraq siyasi, ticarət-iqtisadi, hərbi, humanitar, mədəniyyət, elm, təhsil, informasiya, turizm və idman sahəsində ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün real zəmin yaratdı[2,s.214]. Azərbaycan hələ SSRİ tərkibində olarkən Avropa qitəsinin başqa ölkələrindən fərqli olaraq, sosializm düşərgəsinə daxil olan Şərqi Avropa dövlətləri ilə müəyyən iqtisadi və mədəni əlaqələrə malik idi. XX əsrin sonunda SSRİ-nin süqutu və onun tərkibinə daxil olan respublikaların müstəqillik qazanması, eyni zamanda, Şərqi Avropa dövlətlərinin sosializm düşərgəsini tərk edərək Qərbə üz tutması bu əlaqələri daha da aktuallaşdırdı[3,s.133; 4,s.342 -343]. Azərbaycan Respublikası öz xarici siyasətində Polşa, Rumıniya və Bolqarıstan ilə mədəni əlaqələrin genişlənməsinə və dərinləşməsinə daim böyük önəm vermişdir. Məqsəd və əsas vəzifə Azərbaycan və Şərqi Avropa ölkələri arasında qarşılıqlı anlaşma və etibarlılıq, dostluq münasibətlərinin möhkəmlənməsi, bərabərhüquqlu və səmərəli tərəfdaşlığın, mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsidir.

Avropa və Asiyanı birləşdirən tranzit yollarının üzərində yerləşən Şərqi Avropa regionu əlverişli geosiyasi mövqeyə malikdir. Bölgə dövlətləri Avropanın və dünyanın əksər nüfuzlu regional və beynəlxalq təşkilatlarının üzvüdür. Avropaya inteqrasiya kursu götürmüş müstəqil Azərbaycan dövləti üçün bu dövlətlərlə siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb kəsb edir. Avropa İttifaqı «Yeni qonşuluq siyasəti»ni həyata keçirir ki, bu da nəticədə mədəniyyətlərarası dialoqa xidmət edərək Azərbaycanın Qərb dövlətləri ilə inteqrasyiasına öz mühüm təsirini göstərə bilər.

Azərbaycan qədimdən, müxtəlif mədəniyyətlərin qovuşma nöqtəsi, şərq və qərb, şimal və cənub arasında təbii bir körpü olmuşdur. Azərbaycan Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi Cənubi Qafqaz bölgəsində Xəzər-Qara dəniz hövzəsinin və bütövlükdə qlobal dünyanın mühüm geosiyasi, geoiqtisadi, geostrateji əhəmiyyəti və həm də ümumbəşəri mədəni dəyər kəsb edən bir bölgəsində yerləşdiyindən onun milli maraqları, qlobal dünya maraqlarından ayrıca, təcrid olunmuş şəkildə təmin oluna bilməz.

Asiyanın Qərbə Avropa dövlətlərinin Asiyaya çıxış üçün əlverişli və etibarlı nəqliyyat dəhlizinə olan ehtiyacı onları Transqafqaz dəhlizi ideyası ətrafında birləşməyə sövq etmişdir. «Böyük İpək Yolu» adlanan və minilliklər boyu təkcə ticarət, mal mübadiləsi üçün deyil, həm də mədəniyyətlər, elm və texnologiyalara mübadiləsi üçün dəhlizmədəniyyət dəhlizi olmuşdur. Azərbaycanın, Gürcüstanın, Ukraynanın, Moldovanın, Bolqarıstanın, Polşanın və digər Şərqi Avropa dövlətlərinin bu dəhlizin üzərində yerləşməsi qloballaşan dünyada bu xalqları bir-birinə daha da yaxınlaşdırır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Avroatlantik məkana inteqrasiya yoluna üstünlük verməklə ölkənin inkişafını Avroatlantik relslərin üzərinə çıxardı, prioritet xarici siyasət sahəsinə çevirdi. Bu inteqrasiya xətti təkcə ikitərəfli münasibətlərin inkişafı üçün deyil, həm də mədəniyyətlər, dinlər arasında dialoq üçün, münaqişələri həll etmək və vətəndaş diplomatiyası üçün zəmin yaradır.

Azərbaycan və Şərqi Avropa dövlətlərinin liderlərinin siyasi iradələri və istəkləri də qarşılıqlı mədəni əlaqələrin inkişafını şərtləndirən amillərdən biridir. Dövlət başçılarımızın dostluğu xalqlarımız arasında yaxın dostluq əlaqələri üçün ən yaxşı nümunə olub, böyük əhəmiyyətə malikdir. Azərbaycanın Ukraynadakı səfiri T.Əliyev qeyd edir: «Prezidentlər Əliyevin və Kuçmanın isti, dostluq münasibətləri xristian və müsəlman arasında dostluğa konkret nümunədir»[5].Doğrudan da, keçən əsrin 90–cı illərinin ortalarında Ukrayna və Azərbaycan arasında əməkdaşlığın inkişafının yeni impuls alması və ən yüksək səviyyəyə çatmasına hər iki respublikanın həmin zamandakı rəhbərlərinin – H.Əliyev və L.Kuçmanın şəxsi dostluq münasibətləri böyük təkan vermişdir. Bunu öz çıxışlarının birində L.Kuçmanın dediyi bu sözlər təsdiq edir:«...Bu müdrik insanla söhbətdən mən həmişə çox məmnun qalmışam...» Təsadüfi deyildir ki, Azərbaycanın ümummilli lideri Ukraynanın ən yüksək mükafatı – Yaroslav Mudrı ordeni ilə təltif edilmişdir. 2000-ci ildə Ukraynanın paytaxtı Kivev şəhərində Regionlararası Kadrların İdarə edilməsi Akademiyasının bazasında Heydər Əliyev adına Ukrayna – Azərbaycan Sosial Elmlər İnstitutu açılmış, Heydər Əliyev adına park salınmışdır. Azərbaycanın keçmiş prezidenti Heydər Əliyev və indiki prezident İlham Əliyevin bütün Şərqi Avropa dövlətlərinin başçıları ilə əməkdaşlığını və münasibətlərini liderlərin dostluğuna gözəl nümunə saymaq olar. Belə nümunələri digər Şərqi Avropa ölkələri ilə bağlı göstərmək olar.Rusiya prezidenti V. Putin ikitərəfli mədəni əlaqələrin inkişafında Azərbaycanın liderinin rolunu yüksək qiymətləndirmişdir. 15 dekabr 2003-cü ildə Moskvada hökumət üzvləri ilə müşavirədə çıxış edən V. Putin demişdir: "Heydər Əlirza oğlu keçmiş Sovet İttifaqının nəhəng siyasi xadimi idi və doğrudan da son illərdə Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin inkişafı üçün çox iş görmüşdür. Mən bir daha yada salmaq istəyirəm ki, Azərbaycan keçmiş Sovet Respublikalarından yeganə ölkədir ki, burada bir rus məktəbi belə bağlanmamışdır və rus dilində dövrü nəşrlərin sayı isə hətta sovet dövründə olduğundan da çoxdur."[6, 16.12.2003]. Təbii ki, dövlət başçılarının bu dostluq münasibətləri xalqlarımızı bir-birinə yaxınlaşdırır, xalq diplomatiyasına təkan verir, mədəni əlaqələrin genişlənməsini və inkişafını şərtləndirir.

Hər bir dövlətin xarici siyasətinin müvəffəqiyyəti və beynəlxalq nüfuzu ölkənin qazanmış reputasiya (imic) resurslarından, onu təmsil edən rəhbərin (yaxud rəhbər) işçinin beynəlxalq aləmdə təsdiq olunmuş nüfuzundan, xalqın mədəni və intellektual səviyyəsindən çox asılıdır. Azərbaycan özünün reputasiya, ideoloji-mədəni resurslarına görə dünya ölkələri sırasında nüfuzlu yerlərdən birini tutur. Bu keçmiş Azərbaycan prezidenti dünyada nüfuzlu ictimai, siyasi və dövlət xadimi imici qazanmış Heydər Əliyevin uzun müddət bu ölkəni beynəlxalq aləmdə təmsil etməsi, müsəlman ölkələri içərisində Azərbaycanın Avropa dəyərlərinə, sivil, dünyəvi və hüquqi dövlət quruculuğu proseslərinə meylliyi, xalqın mədəni və intellektual səviyyəsinin yüksək olması, dünyanın elm, təhsil, mədəniyyət və incəsənət xəzinəsinə verdiyi qabaqcıl töhfələri və b. faktorlardan asılıdır».[3,s.262]. Polşa, Bolqarıstan, Rumıniya, Moldova, Ukrayna və başqa Şərqi Avropa dövlətlərinin mühüm geostrateji mövqelərini, beynəlxalq aləmdə yeritdikləri strateji kursu bütün dərinliyi ilə obyektiv qiymətləndirən Heydər Əliyev ölkələrəmiz arasında qarşılıqlı əlaqələrin və yaxın münasibətlərin yaradılması istiqamətində fəal xarici siyasət kursu həyata keçirdi. H.Əliyevin qətiyyətli və ardıcıl siyasətinin doğurduğu inam və rəğbət, öz ölkəlrinin strateji maraqlarınaı təmin etmək və xalqlarını

dünya sivilizasiyasına qovuşdurmaq istəyi Şərqi Avropa dövlətlərinin Azərbaycana artan marağını və ölkələrimiz arasında xoş münasibətlər yaradılmasını şərtləndirmişdir. H.Əliyevin Şərqi Avropa ölkələri ilə bağlı götürdüyü siyasi xəttin prezident İ.Əliyev tərəfindən ardıcıl və fəal sürətdə davam etdirlməsi Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrini şərtləndirmişdir.

Yuxarıda qeyd olunanlar əsasında belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan-Şərqi Avropa mədəni əlaqələrinin qurulması və inkişafı üçün olduqja əlverişli tarixi şərait və imkanlar mövcuddur. Mədəni əməkdaşlığı kifayət qədər ciddi siyasi - tarixi, iqtisadi, geostrateji və başqa amillər şərtləndirmişdir. Mədəni əlaqələri şərtləndirən amillərin arasında Azərbaycan və Şərqi Avropa dövlətlərinin başçılarının siyasi iradəsi, qarşılıqlı dostluq münasibətləri və mədəniyyət sahəsində əməkdaşlığa səy göstərmələri mühüm yer tutur.

## *ƏDƏBİYYAT*

1.Beynəlxalq mədəni əlaqələr.Dərslik.(M.C.Manafovanın və N.T.Əfəndi yevanın redaktəsi ilə.Bakı, «Sabah» nəşriyyatı, 2008,660 səh.
2. Məmmədov H.N. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında qarşılıqlı münasibətlər: qarşıdurmadan strateji tərəfdaşlığa doğru // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri. Hüquq, Sosial-ictimai, iqtisadi, filologiya və pedaqoji elmlər seriyası. Bakı, 2005, № 13
3. Həsənov Ə.. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, Elm, 2000, 368 səh.
4. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, «Azərbaycan» nəşriyyatı, 2005, 752 səh.
5. Посол Талат Алиев. Главное захотеть работать сообща // www. зн.уа.
6.Вступительное слово Президента России В.В.Путина на совещании с членами Правительства, Москва, Кремль, 15 декабря 2003 года// Сообщения пресс – службы Президента Российской Федерации, 16 декабря 2003 г.

**ГАБИЛ МАМЕДОВ**
***Бакинский Славянский Университет***

### АЗЕРБАЙДЖАН - СТРАНЫ ВОСТОЧНОЙ ЕВРОПЫ: НЕОБХОДИМЫЕ УСЛОВИИ СОТРУДНИЧЕСТВА В ОБЛАСТИ КУЛЬТУРЫ, НАУКИ И ОБРАЗОВАНИЯ

В статье рассматриваются необходимые факторы и условии развития и расширения сотрудничества в области культуры, науки и образования между Азербайджаном и странами Восточной Европы на современном этапе. Необходимо отметить, что развитию культурных взаимоотношений способствовали важные исторические, политические, экономические, геостратегические и другие факторы. Среди факторов особое места занимает близкое и дружное отношения глав государств Азербайджана и Восточной Европы и их стремления к культурному взаимоотношению и взаимопониманию.

**HABIL MAMMADOV**
***Baku Slavic University***

### AZERBAIJAN AND THE COUNTRIES OF THE EAST EUROPE: NECESSARY FACTORS OF COOPERATION IN THE FIELD OF CULTURE, A SCIENCE AND EDUCATION

In article necessary factors and a condition of development and expansion of cooperation in the field of culture, a science and education between Azerbaijan and the countries of the East

Europe at the present stage are considered It is necessary to note, that development of cultural mutual relations was promoted by important historical, political, economic, geostrategic and other factors. Among factors special places borrows close and amicable relations of heads of the states of Azerbaijan and the East Europe and their aspiration to cultural mutual relation and mutual understanding.

***Rəyçilər: t.e.n.M.Baxışov, t.e.d.R.C.Süleymanov.***
***Bakı Slavyan Universitetinin Avropaşünaslıq kafedrasının 06 iyul 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №12).***